

# ... VƏ O YAZ

*Faiq QİSMƏTOĞLU*
*faiq_qismetoglu@box.az*

... Yaz gələndə ağaclar çiçək açır. Güllər və çiçəklər baş qaldırır. Və bu yazın ətri insanın qəlbinə və ruhuna elə bir rahatlıq gətirir ki, onu heç bir fəsildə hiss eləmək və duymaq mümkün deyil. Yaz gələndə tək ağaclar çiçək açmır, tək güllər, lalələr, bənövşələr otların arasından baş qaldırmır. Yaz gələndə həm də insanların qəlbindəki, ürəyindəki arzuları da çiçəkləyir. Hətta yaz gələndə dərd də çiçək açır...

... O, yazı başqa fəsillərdən daha çox sevirdi... O, yazı ömrünə-gününə yazılan bir fəsil kimi xatırlayırdı... O, yazı həm də sevgi, məhəbbət və insanlara olan mərhəmət kimi də xatırlamağı unutmurdu. Çünki bu böyük ziyalı, bu böyük insan və bu böyük alim Şamil Qurbanov 1934-cü ilin mayın 10-da Gürcüstanın Bolinisi rayonunun Faxralı kəndində bir yaz günündə dünyaya göz açmışdı. Və o yaz da həmişə anadan olduğu il kimi, gün kimi yaddaşına həkk edilmişdi. O yaddaş ki, zaman-zaman daha da cilalanacaq və zaman-zaman daha da möhkəmlənəcəkdi və onu uca bir zirvəyə aparacaqdı...

Şamil Qurbanov sıradan bir alim deyildi... sıradan bir ziyalı deyildi... və sıradan bir kişi də deyildi... O, özünün istedadı, zəhməti, əməyi və gərgin axtarışlarıyla başqalarından tamamilə seçilirdi. Belə ki, Şamil Qurbanov Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinin yurnalistika şöbəsini bitirmiş, bir müddət mətbuat sahəsində çalışmışdı. Hətta "Azərbaycan məktəbi" yurnalında ədəbi işçi kimi fəaliyyətə başlamışdı. Sonralar "Bakı" qəzetində elm və mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləmişdir.

O, ömrünü elmə, axtarışlara və gənc nəslin savadlanması üçün yeni bir həyata həsr elədi. Azərbaycan Dövlət Universitetində çalışaraq namizədlik dissretasiyası müdafiə etdi, filologiya elmləri namizədi, alimlik dərəcəsi aldı. Sonralar isə elmlər doktoru, professor adına layiq görüldü. Təsadüfi deyildir ki, Şamil müəllim həm də bir müddət filologiya fakültəsinin qiyabi və axşam şöbəsinin dekanı vəzifəsində çalışıb. Həmin vaxtlar da o öz obyektivliyi, tələbənin haqqını qorumağı ilə başqa vəzifəli şəxslərdən tamamilə seçilib. Yəni Şamil müəllim bu vəzifədə olanda nə tələbənin haqqının tapdanmasına imkan verib, nə də müəllimlərin. Haqq-ədalət kimin tərəfində isə həmişə onun yanında olub.

O, alim kimi də, ictimai xadim kimi də, insan kimi də və yazıçı-publisist kimi də həmişə öz sözünü deyib. Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. Eyni zamanda, Azərbaycan- Gürcüstan parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsində böyük xidmətlər göstərib. Gürcüstandakı soydaşlarımızın hüquqlarının qorunmasında bir deputat, bir ziyalı kimi öz sözünü deməyi bacarıb. O, haqq-ədalət yolunda həqiqət deməkdən heç vaxt çəkinməyib.

Hətta Fransanın sabiq prezidenti Yak Şiraka xalqımızın haqqını tapdadığına görə, "qudurmusan" ifadəsini işlətdi. Bax, həmin vaxt Şamil Qurbanovun başı çox əziyyətlər çəkdi. Ona qarşı təxribatlar, şantaylar başladı. Onu isə Azərbaycanın çox böyük ziyalıları - Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Aqil Abbas, İsgəndər Quliyev, Səməndər Məmmədov və digər ziyalılar müdafiə elədilər. Onlar dedilər ki, Şamil Qurbanovun üstünə yerimək yox, Azərbaycanın düşmənlərinin üstünə yerimək lazımdır. Əgər bu böyük ziyalılar olmasaydı, Şamil Qurbanovu hansı cəzalar gözləyirdi, bir Allah bilir. Ancaq o böyük ziyalı, o böyük insan haqq-ədalət yolunda mübarizə aparmaqdan və döyüşməkdən çəkinmirdi.



Böyük şair Zəlimxan Yaqubun Şamil Qurbanov barəsində yazdığı bu misraları xatırlayıram:

Yeridin başına səpələndi qar,
Baxmadın yolların uzaqlığına.
Elmin yollarında ağaran saçlar,
Döndü bu millətin üzağlığına.

... O böyük alim, o böyük ziyalı bir-birindən maraqlı, bir-birindən zəngin elmi axtarışlar apardı. Və bu axtarışların nəticəsində Azərbaycan oxucusu Ömər Faiq Nemanzadə kimi görkəmli bir şəxsiyyəti yenidən tanıdı.

Bununla yanaşı, "Cəmaləddin Əfqani və türk dünyası" kitabı elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi. Şamil müəllim böyük türkçü Cəmaləddin Əfqanini yenidən öz xalqına sevdirməyi bacardı. Eyni zamanda, o böyük alimin "Nəriman Nərimanov dünyası" və "Məmməd Əmin Rəsulzadə" kitabları da sözün həqiqi mənasında elm və ədəbiyyat aləmində bir hadisə yaratdı.

Bununla yanaşı, Şamil müəllim ona dərs demiş, tərbiyə vermiş orta və ali məktəb müəllimləri haqqında çox unikal, yaddaqalan "Müəllimlər" kitabını qələmə aldı. Bütün bunlar böyük alimin yuxusuz gecələrinin, gərgin axtarışlarının və arxivlərdə keçən ömrünün bəhrəsi idi. Bu kitablarla, bu axtarışlarla Şamil müəllim qətiyyən arxayınlaşmadı. O, İman İldırımtürkü, Hüseyn Minasazovu, Əlimərdan bəy Topçubaşovu, Məmməd Qarayevi, Həmzət bəy Qəbulov - Şirvanskini, Rəhim bəy Məlikovu, Sona xanım Axundovanı xalqımıza sevdirməyi, tanıtdırmağı bacardı. Eyni zamanda, Mustafa Kamal Atatürk və Ulu Öndər Heydər Əliyev haqqında unikal yazılar qələmə almağı bacardı.

Yenə Zəlimxan Yaqubun o böyük alim barəsində dediyi bu sözlər yadıma düşür: "Zahiri görkəmi ilə nur heykəlinə bənzəyən, iç dünyası elm işığı ilə dolu olan böyük ziyalımızdı Şamil Qurbanov".

Şamil müəllimi tək öz qohum-əqrəbası, öz eli-obası, Faxralısı tanımır. Çünki o, bəşəri, dünyəvi bir insan idi. O tək Faxralı haqqında, anadan olduğu torpaq barəsində düşünməzdi. O, Azərbaycanın müstəqilliyi və uğurlu gələcəyi barəsində öz canıyla, qanıyla mübarizə aparırdı. O, heç vaxt ağrı-acısını, şəxsi mənafeyini dilə gətirməzdi. Azərbaycanın, bu dövlətin, bu xalqın ayağına dəyən daş professor, kafedra müdiri rəhmətlik Şamil Qurbanovun ürəyinə dəyirdi.

O da başqaları kimi rahat həyat tərzi yaşaya bilərdi... Susub dinməzdi... Hər şeyə göz yumub görməməzliyə vurardı...

Amma Şamil müəllim haqq pozulan yerdə, ləyaqət tapdalanan məqamda, ölkənin, dövlətin başının üstünü buludlar alan zamanda şimşək kimi çaxardı və bir leysan yağış yağardı ki, gəl görəsən. Bu yağış adi yağış deyildi... Bu yağış illərlə onun ürəyində, qəlbində haqsızlığa, ədalətsizliyə qarşı yığılıb qalan dərd-kədər yağışı idi. Bu yağış yağmasaydı, o ildırım çaxmasaydı, yer-göy titrəməsəydi, Şamil müəllimin ürəyi heç vaxt sakit döyünməzdi...

Mayın 10-u o böyük ziyalının, o böyük müəllimin, o böyük alimin 86 yaşı tamam olur. Və 86 yaş bir yaz yağışına bənzəyir. Hər yaz gələndə bu yaz yağışı yağıb, göy üzü durulub, günəş çıxıb. Və bu yaz yağışı Şamil müəllim haqq dünyasında olsa da, onun ruhuna, onun o dünyasına yağır. Bu yaz yağışı həm də haqq aşiqi olan və haqq-ədalət yolunda, bu xalqın uğrunda canını, həyatını fəda edən ruhuna bu gün də yağır. Allah sənə rəhmət eləsin! Məzarın nurla dolsun, Şamil Qurbanov!